UOT: 331

Aysel İlqar qızı ƏZİMZADƏ
magistrant
ayselzemzadd@gmail.com

Firuzə Nəcəf qızı ƏLİYEVA
i.f.d., AKU
10.30546/4.71.73001.2024.024

LAYİHƏ İDARƏÇİLİYİNDƏ TƏŞKİLATİ DAVRANIŞ VƏ KOMANDA İŞİNİN SƏMƏRƏLİ TƏŞKİLİ

Xülasə

Tədqiqatın məqsədi – Tədqiqatın məqsədi layihə menecerinin layihələrin idarə edilməsində əsas funksiyalar, təşkilati davranış, komanda işinin səmərəli təşkil olunmasının təhlil olunmasıdır.

Tədqiqatın metodologiyası – Tədqiqat apararkən layihələrin təhlil metodlarından, milli iqtisadiyyatın inkişafı və tənzimlənməsi ilə bağlı fərman və sərəncamlardan, müxtəlif müəlliflərin ədəbiyyatlarından, internet səhifələrindən istifadə olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Layihələrin təşkilati davranışının yaradılmasında rəhbərin rolunun və komandanın iş fəaliyyətinin artırılmasında, layihə işlərinin səmərəli təşkil edilməsində keyfiyyətini qiymətləndirməyə kömək edər.

Tədqiqat nəticələri – Layihələrin idarə olunmasında təşkilati davranış yaradılmasında rəhbərin rolunun düzgün təmin olunması, iqtisadi səmərəliliyin artırılmasında böyük əhəmiyyət kəsb edir. Çünki iqtisadi səmərəliliyin formalaşmasında, layihələrin yaradılmasında rəhbərin rolu, layihələrin idarə edilməsində komanda işinin səmərəli təşkili əsas meyardır.

Açar sözlər: layihə, struktur, təşkilati, komanda, təhlil, rəhbər, idarəetmə.

Giriş

Layihə meneceri şirkətdəki vəzifə öhdliklərinə uyğun olaraq layihə komandasını idarə edən, onun uğruna, yəni qayşıya qoyduğu məqdəslərə çatmasına cavabdeh olan şəxsdir. Eyni zamanda, o öz layihələrinin məqsədlərinə deyil, həm də şirkətin qarşısında duran strateji hədəflərə hərtərəfli nail olmaq üçün proqram və ya portfel meneceri ilə sıx əməkdaşlıq etməlidir. Layihələrin başa çatdırılmasında onun təşkilati davranışının böyük əhəmiyyəti vardır və strukturun düzgün təşkil edilməsində yeni metod və vəzifələrdən istifadə vacib məsələlərdəndir. Təşkilati davranışın düzgün formalaşması rəhbərin nüfuzuna böyük təsir edir və layihələrin idarə edilməsində düzgün qərar verilməsi layihə menecerindən böyük istedad tələb edir. Layihələrin idarə edilməsi metodologiyasının təsdiq edilməsi, fəaliyyətinin təmin edilməsi müvafiq struktur bölmələrindən asılıdır. Layihə komandasının yaradılması prosesinə investorlar daxil olmaqla, xüsusi layihə komandasının yaradılması daxildir.

Layihəqabağı işlərin təşkil edilməsi, layihələndirmə tapşırığının hazırlanması, müqavilələrin bağlanması üçün sənədlərin hazırlanması, işlərin tam şəkildə planlaşdırılması, təqvim planın tərkibi, həcmi, keyfiyyətinə nəzarət, sifarişçiyə məsləhət xidməti göstərmək, obyektin istismara verilməsi layihə rəhbərinin əsas funksiyasıdır.

Layihənin idarə edilməsi layihənin həyata keçirilməsində iştirak edən layihə heyətinin idarə edilməsini nəzərdə tutur. Yaxşı komanda qurmaq biznesin istənilən sahəsində çox vacib olan məsələlərdəndir. Ümumiyyətlə, layihə heyətinin formalaşması bütün dövrü əhatə edir.

Layihə komandasının toplanması, layihə üzrə hazırlıqların yerinə yetirilməsi üçün zəruri olan komandanın toplanmasıdır. Layihəni idarə edən komanda iştirakçıların seçilməsinə birbaşa nəzarət edə də bilər, etməyə də. Layihənin idarə olunması planına insan resurslarının idarə olunması planı daxildir.

Layihə idarəçiliyinin ümumi məzmunu

Layihələr bizi əhatə edən mühitin təsiri nəticəsində yaranır. Əllinci illərin ortalarında layihələrin idarə edilməsinin müasir konsepsiyası ABŞ-da meydana gəlmişdir. Altmışıncı illərdə Qərbi Avropa ölkəsində istifadə edilməyə başlanmışdır. Qərbi Avropa və SSRİ-də layihələrin idarə edilməsi bir-birindən fərqlənirdi. Layihələrin dairə edilməsi xüsusi metodologyaya çevrilmiş, özəl müəssisələrin və bəşəri mədəniyyətin tərkib hisssəsini təşkil etmişdir.

İSO 21500 standartları:

Layihələrin idarə edilməsi metodlarına alətlərin, funksiyaların və kompetensiyaların layihələrinin tətbiq edilməsidir. Layihələrin idarə edilməsi layihənin həyat yolunun müxtəlif fazalarının inteqrasiya edilməsi deməkdir. Layihələrin idarə edilməsi proseslər əsasında həyata keçirilir.

Layihələrdə istifadə olunan bu proseslər sistemli şəkildə ardıcıl olaraq icra olunmalıdır. Layihənin hər bir həyat yolunun fazası olmalıdır. Bu nəticələrin sponsorların, sifarişçilərin və digər maraqlı tərəflərin tələblərinə cavab verib-verməməsi layihə həyata keçirilməsi zamanı təhlil edilir. [1, s. 70].

İPMAİCB standartları:

Layihələrin, proqramların və portfellərin sayı bütün dünyada artan templə inkişaf edir. Son otuz il ərzində layihələrin idarə edilməsi olduqca inkişaf edən istiqamətlərdən birinə çevrilmişdir. Müxtəlif növ layihələr peşəkar səviyyədə idarə olunur. Keçmişdə bu sahədə tikinti və müdafiə layihələri üstünlük təşkil edirdisə, hazırda digər növ layihələr də artıq üstünlük təşkil etməkdədir. Bu iqtisadiyyatın müxtəlif sektorlarında bir sıra layihələr, informasiya və kommunikasiya texnologyası, idarəetmə, marketinq, istehsalat, tədqiqat, siyasi və s. bu kimi digər növ layihələrin idarə olunması problemlərini müzakirə edirik [1, s. 70].

Layihə üzrə bütün inzibati işlərin həyata keçirilməsi, hesabatların hazırlanması və struktur bölmələrinə göndərilməsi, resursların paylanması və mənimsənilməsinə nəzarət, layihənin idarə edilməsi üzrə işçi heyətinin tərtib edilməsi, kompyuter proqramları ilə əməliyyatların aparılması və bütün inzibati işlər layihə komandasının koordinasiyası hesab olunur.

Layihələrin səmərəli şəkildə həyata keçirilməsi üçün işçi heyətinin layihə meneceri üzrə istehsalın artırılması, daxili ekspertlərin məsləhətçi kimi işə cəlb olunması, məsləhətçilərin layihə ofisində yerləşdirilməsi, layihənin idarə edilməsi metodları üzrə materiallar ilə təmin edilməsi komanda işinin əsasıdır.

Layihəyə rəhbərlik edilməsi layihəyə hərtərəfli və ardıcıl nəzarətin və onun uğrunun təmin edilməsi metodudur. Layihəyə rəhbərlik edilməsi layihəni maliyyələşdirən təşkilatın və proqramın çərçivəsində olmalıdır. Həm layihənin iştirakçıları, həm zəruri resurslar, həm də işlərin icrasına ümumi yanaşma haqqında qərarlar qəbul edilməlidir.

Layihələrin mərhələsi yekunlaşarkən, onun nəticələri təhlil olunur. Əgər layihənin davam etdirilməsi riski həddən artıq yüksəkdirsə, yaxud, əgər məqsədlər artıq məcburi deyilsə, mərhələ yekunlaşandan sonra yeni mərhələnin başlanmasına ehtiyac yoxdur.

Layihə planlaşdırılmasının ilkin mərhələsində komandanın nəticə əldə etməyə diqqətini gücləndirmək üçün komanda üzvlərini cəlb etmək əsas şərtlərdəndir.

Layihəçi layihənin smeta sənədlərini işləyib hazırlayan təşkilatdır. Layihə işlərinin kompleks yerinə yetirilməsinə görə baş təşkilat məsuliyyət daşıyır. Layihə rəhbərinin layihənin icrası zamanı səlahiyyətlərinin tərkibi sifarişçi tərəfindən müəyyən olunur.

Layihələrin işlənib hazırlanmasında qərarların axtarışı, ehtiyatlara və icraçılara görə qaşılıqlı tapşırıqları, tədbirlərin formalaşdırılması həyata keçirilir.

Layihənin reallaşması layihənin məqsədlərinin və layihənin nəticələrinin sifarişçiyə təhvil verilməsi, layihənin başa çatması prosesidir.

Ümumiyyətlə, layihə idarəçiliyinə nəzər salsaq, görürük ki, idarəetmə sisteminin formalaşması, sənayenin inkişafı yüksək rəqabət mühitinin formalaşması, dəyişən bazar qanunlarının formalaşdığı iyirminci əsrə təsadüf edir.

Layihəni yerinə yetirmək və ona rəhbərlik etmək məqsədi ilə yaradılmış xüsusi təşkilat layihənin komanda heyətidir. Layihənin mürəkkəbliyindən, xüsusiyyətindən, miqyasından asılı olaraq

komandanın əsas heyəti müəyyənləşdirilir. Komandanın əsas heyəti layihələrin rəhbərindən və texniki aspektlər üzrə əlaqələndirmə edən layihə mühəndisliyindən təşkil olunur.

İqtisadiyyat və iqtisadi inkişafa yönəldilmiş bütün layihələr, o cümlədən, maliyyə, vergi, gömrük, audit və s. iqtisadiyyatın digər sahələrinin inkişafı ilə bağlı olan bütün layihələr iqtisadi layihələr adlanır. İqtisadi layihələrin əsas məqsədi predmet sahəsini iqtisadi inkişafa yönəltmək və nəticədə onun iqtisadi göstəricilərini daha da yüksəltməkdir [2, s. 36].

Layihə komandasının toplanması insan resurslarının əlçatanlığının təsdiqlənməsi və layihə üzrə tapşırıqların yerinə yetirilməsi üçün zəruri olan prosesdir. Komandanın toplanması prosesində aşağıdakıları nəzərə almaq lazımdır:

- layihə üçün zəruri olan insan resurslarının yığılması;
- layihə idarə edən komanda, yaxud menecer müvafiq vəzifələr tutan şəxslərlə danışıqlar aparmalıdır;
- insan resursları çatışmırsa, layihəni idarə edən menecerlərdən alternativ resursların cəlb edilməsi tələb oluna bilər.

Layihələrin idarə olunması planına insan resurslarının idarə olunması planı daxildir. Buraya layihəyə cəlb olunacaq insan resurslarının müəyyən olunmasına dair məlumatlar daxildir. Bu məlumatlara aşağıdakılar aiddir:

- layihə üçün zəruri məsuliyyət sahələri;
- layihənin təşkilati diaqramları;
- layihənin personalla təminatının idarə olunması planı.

Layihə komandasının toplanması prosesinə insan resursları haqqında mövcud informasiya, ixtisaslaşmanın səviyyəsi, iş təcrübəsi, personalın idarə olunması qaydaları, təşkilati strukturu və s. daxildir. Bir çox layihələrdə personalın təyin olunması danışıqlar predmeti olur. Məsələn, layihəni idarə edən komandanın danışıqlar aparmasına ehtiyac yarana bilər:

- rəhbərlərlə danışıqlar;
- təşkilatın daxilində layihələri idarə edən digər komandalarla danışıqlar;
- kənar təşkilatlarla, təchizatçılarla və s. danışıqlar.

Əgər icraçı təşkilatın layihəni yerinə yetirmək üçün ştatlı mütəxəssisləri çatışmırsa, bu zaman lazım olan xidmətləri kənar mənbələrdən almaq olar. Məsələn, məsləhətçilərin cəlb olunması və yaxud, işlərin bir hissəsinin sub-podrat əsasında kənar təşkilata verilməsi.

Layihələrin idarə olunmasında virtual komandaların yaradılması layihəyə komanda üzvlərinin cəlb edilməsi üçün yeni imkanlar yaradır. Burada qrupun hər bir üzvü öz işini yerinə yetirir, onun başqaları ilə heç bir təması olmur. Belə komandaların fəaliyyəti elektron kommunikasiya vasitələri sayəsində mümkün olur. Virtual komanda şəraitində fəaliyyət kommunikasiyaların planlaşdırılmasının əhəmiyyətini artırır. Bəzən iştirakçıların gözləntilərinin dəqiq müəyyən olunması, kommunikasiyaların qurulması, müqavilələrin nizamlanması qaydalarının hazırlanması, layihənin ümumi uğrunda iştiraka görə həvəsləndirmələrin bölüşdürülməsi əlavə vaxt aparır.

Resurs təqvimləri layihənin komanda üzvlərinin komandanın inkişafına dair tədbirlərinə uyğun müəyyən edilir. Bu vərdişlər bəzən sosial vərdişlər adlanır. Layihəni idarə edən şəxs komanda üzvlərinin hərəkətlərini qabaqcadan hesablamalı, rəylərinə qulaq asmalı və üzvlərin təklif etdiyi rəylər ilə razılaşarsa və onların problemlərini həll edərsə, bu zaman layihənin icrası zamanı problemlərin sayı azalar və əməkdaşların qarşılıqlı əlaqələri artar.

Layihənin komanda üzvlərinin ixtisaslaşmasının yüksəlməsinə yönələn əsas şərtlərdən biri təlimlərdir. Komanda üzvlərinə təlim keçirilməsinin müxtəlif üsulları mövcuddur. Komandanın möhkəmləndirilməsi, strategiyası xüsusən o zaman qiymətlidir ki, komanda üzvləri bir-birindən uzaqda olsun və onların fərqli xüsusiyyəti olmasın. Layihə komandasının problemlərini müzakirə etmək komandadakı mühitin yaxşılaşdırılmasının vacib məsələlərindəndir və onlara bütöv komandanın problemləri kimi yanaşılmalıdır.

Layihənin uğur qazanması üçün komanda üzvləri arasında açıq ünsiyyət formalaşdırılmalıdır. Layihələrin müvəffəqiyyətli həyata keçirilməsi üçün layihə menecerləri rəhbərliyin dəstəyinə,

komanda üzvlərinin sadiqliyinə həvəsləndirici mükafatlar təyin etməli, münaqişələri effektiv həll etməli, komanda üzvləri arasında açıq ünsiyyət və komandanı adekvat idarə etməlidir.

Komandanın möhkəmləndirilməsi, daimi bir proses olmaqla, layihənin uğur qazanması üçün xüsusi önəm daşıyır. Layihə icra edərkən, layihə mühitində dəyişikliklər qaçılmazdır və bu dəyişikliklərin effektiv idarə olunması üçün komandanın möhkəmləndirilməsi istiqamətində tədbirlər görülməlidir. Layihə meneceri layihələrin idarə edilməsində komanda üzvlərinin fəaliyyətini və onların işinin icrasında məhsuldarlığı daima nəzarətdə saxlamalı, komanda daxilində problemlərin qarşısını almaq üçün əlavə tədbirlərə ehtiyac olub-olmadığını müəyyən etməlidir.

Əgər layihə komandasının üzvləri əvvəllər bir yerdə çalışıblarsa, belə layihələrdə komanda inkişafının bəzi mərhələləri buraxıla bilər:

- layihənin komanda üzvləri bir yerə toplaşır, öz rolu və məsuliyyəti barədə məlumat verir;
- komanda layihə üzrə işlər, texniki qərarları və layihənin idarə olunmasına dair yanaşmaları öyrədir;
- layihənin icrası mərhələsində komanda üzvləri birgə işləməyə və davranış modellərini, özlərinin iş vərdişlərini komanda işinə uyğunlaşdırmağa, komanda üzvləri layihə işlərini icra edərkən bir-birinə güvənməyə başlayır;
- layihələrin idarə olunmasında məhsuldarlıq mərhələsinə çatan komandalar yaxşı təşkil olunmuş bölmələr kimi fəaliyyət göstərir;
- layihənin idarə edilməsinin bu mərhələsində komanda işi yekunlaşdırılır və yeni növbəti mərhələyə keçir.

Menecer komandaların inkişafı dinamikasını aydın təsvir etməli, layihədə iştirak edən komanda üzvlərinin bütün mərhələləri effektiv keçməsinə şərait yaratmalıdır.

Komanda işinin effektivliyinin qiymətləndirmələri komandanın inkişafına dair tədbirlər icra olunduqdan sonra, layihəni idarə edən komanda layihə komandasının işinə rəsmi və qeyri-rəsmi qiymət verə bilər. Bu tədbirlər komanda işinin məhsuldarlığının artırılmasında, komandanın inkişafına dair effektiv strategiyalar və öz növbəsində layihənin məqsədlərinə müvəffəqiyyətlə nail olmasına kömək edər. Effektivlik, uğurlu komanda işinin qiymətləndirilməsində təqvim icra olunması, büdcənin icra olunması məhdudiyyətləri əsas götürülür.

Komanda işinin effektivliyi aşağıdakı göstəricilər ilə qiymətləndirilə bilər:

- verilən tapşırıqları effektiv yerinə yetirmək qabiliyyətinin artması;
- kadr dəyişikliklərinin azaldılması;
- komanda üzvlərinin bir-birinə açıq olması, təcrübə mübadiləsi apara bilməsi.

Layihə komandasının idarə olunması

Layihə iştirakçılarının tərkibi, rolu, funksiyası və məsuliyyət bölgüləri layihənin növündən, miqyasından və onun mürəkkəbliyindən asılıdır. Layihə komandası layihəni idarə etmək məqsədi ilə yaradılmış müvəqqəti qrupdur. Komandanın əsas məqəsədi layihəni uğurla başa çatdırmaq, layihənin məhsuluna nail olmaqla nəticə əldə etməkdir. Komanda heyətinin sayı layihənin mürəkkəbliyindən, miqyasından və xüsusiyyətlərindən asılı olaraq müəyyənləşir. Komandanın əsas heyəti layihə rəhbərindən, sahələr üzrə menecerlərdən, maliyyə və texniki məsələlər üzrə ekspertlərdən, habelə, monitornq üzrə - layihə menecerindən təşkil olunur [2, s. 44].

Layihə komandasının idarə olunmasına komanda üzvlərinin fəaliyyətinə nəzarət, əlaqələrin təmin olunması, dəyişikliklərin idarə olunması daxildir. Layihəni idarə edən komanda icraçı komandanın münaqişələrini nizamlayır, komandanın fəaliyyətinə nəzarət edir, layihələrin menecerləri komanda üzvlərinə ciddi səylər tələb edən tələblər verməli və həvəsləndirməni təmin etməlidir.

Layihələrin idarə olunması planına insan resurslarının idarə olunması planı daxildir. İnsan resurslarının idarə olunması planına rollar və məsuliyyət sahələri, layihənin təşkili, layihənin personalda təminatının idarə olunması planı daxildir.

Layihə komandasının idarə olunmasının təşkilati proseslərinin aktivləri sırasına fəxri fərmanlar, informasiya bülletenləri, mükafatlandırma sistemi və mükafatlandırmanın digər alətləri daxildir.

Layihə komandasının idarə olunmasının alət metodlarına müşahidə və müzakirələr, işlərin icrası prosesindən xəbərdar olmaq, layihə komanda üzvləri arasında ovqatı bilmək daxildir.

Komanda quruculuğu, fəaliyyətlərinin nəticələrinə görə birgə məsuliyyət daşıyan və paritet əsasda əmək bölgüsünü həyata keçirən müxtəlif ixtisasların bərabərhüquqlu mütəxəssislər qruplarının yaradılmasına yönəldilmişdir [4, s. 72].

Layihələrin icrası zamanı komanda üzvləri ilə konstruktiv əks əlaqənin təmin edilməsi, sonrakı müddətlər üçün konkret məqsədlərin qoyulması, rolların və məsuliyyətin bölüşdürülməsi, fərdi təlim planının işlənib hazırlanması, layihənin davamlılığı, təşkilati normalar, ünsiyyət vasitələrinin sayı, əmək müqavilələrinin müddəaları və keyfiyyəti daxildir.

Hər bir layihənin icrası zamanı münaqişələr qaçılmazdır. Layihələrin icrası zamanı münaqişələrin sayının azaldılmasına komandada qəbul edilən prinsiplərin, layihənin idarə olunmasına dair oturuşmuş təcrübənin, normaların mövcud olması kömək edir. Münaqişələri ilkin mərhələdə, bir qayda olaraq, konfidensial, hər iki tərəflə birbaşa təmasa girmək və onun əməkdaşlığı şəraitində tənzimləmək lazımdır. Layihə menecerlərinin münaqişələri həll etmək qabiliyyəti komandanın layihələrin idarə edilməsində uğurlu idarə etməyindən asılıdır. Menecerlərin layihələrin dairə edilməsində münaqişələri həll etmələri müxtəlif üsullarla ola bilər. Layihə münaqişələrinin həlletmə metodları mövcuddur ki, onların hər birinin öz təyinatı vardır. Qaçma, barışma, kompromis, məcbur etmə, əməkdaşlıq – problemlərin həlli.

Layihə komandasının idarə olunması prosesi nəticəsində yeniləşməsinə ehtiyac yarana bilən təşkilati proseslərin aktivləri arasında digərləri ilə yanaşı tarixi məlumatlar, toplanmış biliklər arasında sənədlər, təşkilatın standart prosesləri və şablonlar daxildir.

Layihənin idarə olunması planının yenilənməsi ilə yanaşı, layihənin personalla təminatının idarə olunması planı daxildir. Əgər personalın təyinatı ilə bağlı əmələ gələn problemlər layihənin idarə olunması planını pozursa, bu halda dəyişikliyə dair sorğu hazırlanmalı və ona dəyişikliklərin ümumi idarə olunması prosesi çərçivəsində baxılmalıdır.

Personalın təyinatında dəyişikliklərin nümunələri aşağıdakılardır: işin başqa vəzifələri həyata keçirən əməkdaşlara tapşırılması, işlərin bir hissəsinin kənar təşkilatlara həvalə edilməsi, komandanın gedən üzvlərinin yeni əməkdaşlarla əvəzlənməsi.

Nəticə

Beləliklə, araşdırmalar göstərir ki, layihələrin idarə edilməsi metodologiyaları, layihənin idarə edilməsi qaydalarını müəyyən edən və iştirakçıların məsuliyyət və səlahiyyətlərini təmin edən tənzimləyici çərçivədir. Təyin olunmuş funksiyaları yerinə yetirmək üçün kifayət qədər bilik və bacarıqlara malik iştirakçıları dəstəkləmək və inkişaf etdirmək üçün olan bölmədir.

Layihə anlayışı ilə bağlı verilən tərifl ərdən istifadə edərək layihə idarəçiliyində təşkilati davranışı və komanda işinin səmərəli təşkilində layihə anlayışını aşağıdakı kimi xarakterizə etmək olar:

- layihənin müəyyən bir məqsədi vardır;
- layihə müəyyən olunmuş bir vaxt bitimində yekunlaşdırılır;
- layihənin icrasında müxtəlif resurslardan istifadə olunur;
- layihə risk və qeyri-müəyyənlik daşıyır.

Bacarıqlı məsləhətçilər, layihələrin idarə edilməsi üzrə böyük təcrübəyə malikdir. Layihənin başa çatdırılmasında onun təşkilati davranışının böyük əhəmiyyəti vardır.

Layihələrin işinin təşkil edilməsi, müqavilələrin bağlanması üçün sənədlərin hazırlanması, təqvim planının tərtibi, həcmi, obyektiv istifadəyə verilməsi layihə rəhbərinin əsas funksiyasıdır.

Araşdırmalar göstərir ki, layihə üzrə tapşırıqların yerinə yetirilməsi üçün zəruri olan komandanın toplanması əsas prosesdir və layihəni idarə edən komanda iştirakçılarnın seçilməsinə birbaşa nəzarət etməlidir. Minimum insan resurslarının idarə olunması layihənin idarə olunması planına daxildir. Beləliklə, layihə idarə etmək layihənin minimum məsrəflər ilə müəyyənləşdirilmiş vaxt, ölçü və keyfiyyət tələbləri çərçivəsində yekunlaşdırılmasıdır.

Layihələrin idarə edilməsində hesabatların hazırlanması və struktur bölmələrinə göndərilməsi, layihənin idarə edilməsi üzrə işçi heyəti, layihənin tərtib edilməsi, bütün inzibati işlərin hazılanması, kompyuter proqramları və s. layihə komandasının koordinasiyası hesab olunur.

Tədqiqatlar göstərir ki, layihə komandasının idarə olunmasına, komanda üzvlərinin fəaliyyətinə nəzarət, əlaqələrin təmin olunması, dəyişikliklərin idarə olunması layihə menecerinin əsas funksiyasıdır. Layihə komanda üzvlərinin ixtisaslaşmasının yüklənməsinə yönələn əsas şərtlərdən biri təlimlərin olunmasıdır. Layihə planının hazırlanması və layihə heyətinin idarə edilməsi üçün insan resurslarının düzgün seçilməsi mühüm addımdır.

ƏDƏBİYYAT

1. İ.A.Babayev. Layihələrin idarə edilmsi metodologiyası. Monoqrafiya. Bakı, "Elm", 300 səh.
2. İ.A.Babayev. Layihələrin idarə edilməsi, Bakı, 120 səh.
3. İ.A.Babayev. Layihələrin idarə edilməsi. Milli kompetensiyaların əsasları. Peşəkar biliklərin əsasları. Milli sertifikatlaşma sistemi. (VCV 107), Bakı, "Çavuşoğlu", 2002, 214 səh.
4. Хохлова Т. Team-building как основа современных персонал-технологий // Управление персоналом, 2005, №1-2, с. 72. – http://www.top-personal.ru/issue.html
5. N.Karayev. İnnovasiya menecmenti, Bakı, 2011.
6. Основы управления проектами : [учеб. пособие] / Л. Н . Б оронина, З. В. Сенук ; М-во образования и науки Рос. Федерации, Урал. федер. ун-т. – Екатеринбург : Изд-во Урал. ун-та, 2015, 112 s.

Айсель Илгар гызы Азимзаде
Магистрат
ayselzemzade@gmail.com

Фируза Наджаф кызы Алиева,
Доктор Философии по экономическим наукам,
Азербайджанский Университет Кооперации

Организационное поведение и эффективная организация командной работы в управлении проектами

Резюме

Цель исследования: Основной целью данного исследования был анализ основных функций менеджера проекта в управлении проектами, а также организационного поведения и эффективной организации командной работы.

Методология исследования: В ходе исследования были использованы методы анализа научно-исследовательских проектов, указов и распоряжений, связанных с развитием и регулированием национальной экономики, а также опубликованные работы и веб-сайты.

Прикладная значимость исследования: Способствует повышению качества роли лидера и рабочей активности коллектива в создании организационного поведения проектов, помогает оценить качество эффективной организации проектной работы.

Результаты исследования: Правильное обеспечение роли лидера в формировании организационного поведения при управлении проектами имеет большое значение в повышении экономической эффективности. Потому что роль лидера является основным критерием формирования экономической эффективности и создания организационной структуры. Эффективная организация командной работы в управлении проектами является основным критерием.

Ключевые слова: проект, структура, анализ, руководство, менеджмент.

Aysel Ilgar Azimzade
Master’s Candidate
ayselzemzade@gmail.com

Firuza Aliyeva Najaf,
PhD in Economics, Azerbaijan Cooperation University

Organizational Behavior and Effective Organization of Teamwork in Project Management

Summary

Research purpose: The main purpose of this research was to analyze the main functions of the project manager in project management, as well as organizational behavior and effective organization of teamwork.

Research methodology: During the study, analysis methods of research projects, decrees and orders related to the development and regulation of the national economy, as well as published works and websites were used.

Applied significance of the research: It helps to improve the quality of the leader's role and the team's work activity in creating organizational behavior, and to evaluate the quality of the effective project organization.

Research results: Correct provision of the role of the leader in creating organizational behavior in project management is of great importance in increasing economic efficiency. This is because the role of the leader is the main criterion in the formation of economic efficiency and the creation of an organizational structure. Effective organization of teamwork in project management is the main criterion.

Keywords: project, structure, analysis, leadership, management.